## Sənin lütfün ilə, Allah!!!

*Əziz Türküstan sevərlər!*

*Son vaxtlar səhhətimdə olan ciddi dəyişikliklər uzun müddət həkimlərin yazdığı müalicələrin nəticəsiz qalması həssas şair könlümü dilə gətirdi.Əlbəttə, mən ölümdən qorxan şairlərdən deyiləm. Əksinə, elə ömür yaşamaqdan qorxuram ki, o ölümdən çox-çox aşağı səviyyədə olsun. Ölüm Allah sirridir. Heç kim nə vaxt öləcəyini dəqiq bilməz. Şairdən yadigar yaxşı əsərləri və yaxşı övladları qalır. Mən də ömrümün müxtəlif dövrlərində övladlarıma çoxlu şeirlər həsr etmişəm. İndi bu şeirlərdən bir neçəsini diqqətinizə təqdim edirəm.*

*Ən birinci təqdim etdiyim "Övladlarım" şeirimdən göründüyü kimi Vətəni və Milləti belə yaman gündə qoymaq fikrim yoxdur. Əqidə və məslək dostlarımla etdiyim söhbətlərim də belə deyirəm. Vətənimin və Millətimin belə ağır günlərində fənadan üqbaya köç etsəm Vətənimə və millətimə xəyanət etmiş olaram. Allah belə ölümü mənə nəsib etməsin... Amin. Rəbbil Aləmin.*

### Övladlarım

Vəsiyyət də bir yüngüllükdür.
Atalar sözü
Adım rəhmətlə anılar,
Axır- güman övladlarım.
Anım qərinə şanılar,
Uçur zaman övladlarım.

Nə nisgil, nə hicran olun,
Üç ürəkdə bir can olun,
Vahid Azərbaycan olun!!!
Könlü ümman övladlarım!!!

Bir haqqı uca sayın siz,
Alnı açıq yaşayın siz,
Atanıza oxşayın siz,
Hər vaxt, hər an övladlarım.

Elm, helm zənginlikdir,
Əbədi bir ənginlikdir,
Bu dünyası beş günlükdür-
Bilmir İran övladlarım.

Haqq önündə üzü ağam,
Cövhəri sağ, sözü sağam,
Ölümdən də çox uzağam
Mənəm Turan övladlarım.

Bəlli deyil köçmək vədəm,
Əcəl camın içmək vədəm,
Fəzailəm fəzilətəm,
Fəzlim Quran övladlarım.

### Sən sirli dünyamın gözəlliyisən...

*Qızım Gülövşəyə həsr edirəm*

Sən ey ömür gülüm, ey dan ulduzum,
Xoş tale, xoş yığval Gülövşə qızım.
Səni sirli dünyamın gözəlliyisən,
O qadir Allahın hökmünə əhsən.
Səni fitrətindən incə yaratmış,
Səninlə gözəllik zirvəyə çatmış.
Anamın adını vermişəm sənə,
Anam tək əzizsən Gülövşəm mənə.
Əfsus Anam səni görə bilmədi,
Yox Anam yaşayır, Anam ölmədi.
Sən onun ömrünün mabədi oldun,
Bu dünya durduqca əbədi oldun.
Bu dünya nurlanar öz nurun ilə.
Namusun, ismətin qürurun ilə.
Məsum bir körpəsən sən hələ qızım,
Taleyin üzünə kaş gülə qızım.
Ömrün aza bilməz dumanda, çəndə.
Fatmayı – Zəhranın nuru var səndə -
Vüqarın yenilməz, əzmin mətindir.
Zeynəb dəyanəti dəyanətindir.
Hələ çox yaşaram, coşub çağlaram,
Lazım gəlsə ərzi tutub şaxlaram.
Qıymaram atadan qalasan yetim,
Qız üçün atadan əziz var de kim?
Şairəm sərvətim şeirimdir mənim,
Şerim də ilahi xeyimdir mənim.
Çəkdiyim əzablar sənə yəqindir,
Şair qızı olmaq qızım çətindir.
Yenincə müşkülü səbr eləyərsən,
İnşallah atanla fəxr eləyərsən!
Havayı ötüşməz gecəm, gündüzüm,
Olar öz cığırım, qalar öz izim.

28.II. 2004

### İsrafil çaldığı sur olmuşam mən!!!

*Oğlum Hümbətə həsr edirəm*

Oğlum, imdadına daim haqq çatsın.
Səndəki saflığa vurulmuşam mən.
Atan daha coşqun təblə yaratsın,
Sanma ahılaşıb, yorulmuşam mən.

Əyrini düz kəsmiş, kəsəcək ancaq,
Bu ömrü sanmayaq oyun- oyuncaq,
Gəl qatı zülmətdə qoşa nur saçaq,
Şir bürcündənik biz, şir olmuşam mən.



## Fəzail İsmayıl Böyükkişi

Nələr görməyibdir, gözlərim nələr..,
Bunu bəndə deyil, bir Allah bilər,
Uydurmaram köpükləmiş kəlmələr-
Calxanıb ümman tək durulmuşam mən.

Sən babam Hümbətin adası oldun,
Atam İsmayılın sirdaşı oldun,
Əslimin, nəslimin yaddaşı oldun,
Təməlindən möhkəm qurulmuşam mən.

Amansız həyatda ciddi ol hər an,
Təslim idrakına yer-göy, asiman,
Tarix bizdən sərt götürür imtahan,
Hər çətin sınaqda doğrulmuşam mən.

Allahdır könlümün eşqi, həvəsi,
Allahlıdır dost-həmdəmi, hər kəsi,
Ovulmazdır mənliyim nüvəsi,
Təpədən dırnağa nur olmuşam mən.

Birdir toxuma da, nüvə də, gen də,
Sənin tək çılğındım gənclikdə mən də,
Mən ata, sən oğul, sən məndən öndə,
Uğrunda şadlanıb, var olmuşam mən

Bildim nə var hər insanın içində.,
Əylənmədim təbabətim güncündə,
Şahənşaham şeir-sənət mülkündə,
Qələmə- kağıza sarılmışam mən...

Atan haqdan yanır, alışır, oğlum!
Onunla dağ-dəniz danışır, oğlum!
Bəşər hümmət olub barşır, oğlum!
Misri tək qanından sıyrılmışam mən.

Açıq söylə böyük qardaş sözünü,
Toğrulumun aç həyata gözünü,
Gülövşəmin qüssəsiz gör üzünü,
Ən uca zirvədə yer olmuşam mən.

Atan könüllərə çoxdan köçübdü,
Ölçən ölçüb, biçən gözəl biçidi,
Sizi mənə Allah övlad seçibdi,
Adəmdən- Xatəmə sirr olmuşam mən.

Söz sərrafı dönməz heç vaxt acizə,
Bağlanmışam qeybdən gələn haqq səsə,
Fəzail son sözün söyləyir kəsə,
İsrafil çaldığı Sur olmuşam mən!!!

### Toğrul balam

Gündüz yatır bilərək,
Gecə yatmır gülərək,
Gecəmiz sübhə tək,
Bölur, Toğrulum, bölur.

İncə qəlbli şirin dilli,
Türk soylusan, Toğrul balam.
Üzü nurlu, ürəyisə.
Alovlusan, Toğrul balam.

Gülümsərsən şirin-şirin,
Düşünərsən dərin-dərin,
Qorqudu ol sən bu yerin,
Boy boylasan Toğrul balam.

Çox nisgilli sözlər səni,
Təşnə-təşnə gözlər səni,
Mərd igidlər səslər səni,
Haraylasan, Toğrul balam.

Araz üstən keç hasan,
İstəyimə sən çat barı,
Ərdəbildən seçsən yarı,
O taylısan, Toğrul balam.

Köləlikdir ömrə xəzan,
Azadlığı umma, qazan!
Deyəmməsin qoy yad insan,
Buxovlusan, Toğrul balam.

1989